Aİ Tvinninq layihəsi AZ08/ENPPCA/FI/06
"Azərbaycan Respublikası
Dövlət Statistika Komitəsinə dəstək"

# MƏLUMAT BÜLLETENİ 2

## Bu buraxılışda


| Mövzu | Səhifə |
|---|---|
| *2010-cu ilin iyun ayına kimi nə yerinə yetirilmişdir?* | 1 |
| *Fəaliyyətlər rəqəmlərdə* | 1 |
| *Komponentlər üzrə fəaliyyətlər* | 1 |
| *Layihənin idarəetmə heyətində dəyişikliklər* | 2 |
| *Növbəti fəaliyyətlər və vaxt qrafiki* | 3 |
| *Daxili monitorinq* | 3 |
| *Bakıda Statistika İdarələrinin rəhbərlərinin üç tərəfli görüşü* | 3 |
| *Əyləncə* | 4 |


## 2010-cu ilin iyun ayına kimi nə yerinə yetirilmişdir?

Birinci İdarəetmə Komitəsi (İK1) 2010-cu ilin mart ayında təşkil edilmişdir. Hesabat dövründə altı missiya həyata keçirilmişdir. Onların dördü layihənin komponent sahələrində cari vəziyyətinin qiymətləndirilməsinə həsr olunmuşdur: Milli hesablar: Müşahidə olunmayan iqtisadiyyat: Biznes Statistikası (plyus biznes registri) və İstehlakçı Qiymət İndeksi. Bu missiyaların nəticələri müvafiq komponentlərin gələcək inkişafına əsas vermiş və növbəti fəaliyyətlər uyğunlaşdırılmışdır.

İK1-də komponent rəhbərləri layihənin başlanması haqqında öz fikirlərini bildirdilər. Onlar birinci rübdə yerinə yetirilən işləri yaxşı qiymətləndirilməkdən əlavə, daha çox diqqət yetirilməli olan istiqamətləri də vurğuladılar. Aİ Layihə Meneceri cənab Kristofer Kasilas da, dəyərli tövsiyələrini vermişdir.

İkinci İdarəetmə Komitəsi 2010-cu ilin 23 iyun tarixində keçirilmişdir. İkinci rübdə Üzv Dövlətlərin beş qısa müddətli missiyası həyata keçirilmişdir. Bu missiyalardan üçü birinci, ikinci və üçüncü komponentin hər birinə isə biri aid olmuşdur. Əvvəlki rübdə yerinə yetirilən işlərin ümumi qiymətləndirilməsindən sonra, bu rübdə əsas diqqət biliyin sonrakı və daha dəqiq mübadiləsinə yönəldilmişdir. Missiyalar müddətində ÜD-lərin real rəqəmləri əsasında metodologiya vizualaşdırılmış və mümkün olduğu yerdə Dövlətskatkomın məlumatları ilə hesabları. Bu aidiyyəti mövzularda işçi heyətinin peşəkar bacarıqlarının yaxşılaşdırılmasına dəstək verir və missiyanın təfsilatı nəticələrinə səbəb olur. Bu addımlar növbəti rübdə planlaşdırılmış mütləq hədəflərə çatmağa yol göstərir. İkinci İdarəetmə Komitəsində BD tərəfindən olan layihə rəhbərləri ikinci rübdə yerinə yetirilən işlərə dair öz fikirlərini bildirmişlər:

- Ekspertlər məlumatın toplanması və real hesablamalar üzərində işləmiş, daha sonra nəticələri ÜD-lərin ekspertləri ilə müzakirə etmiş və öz növbəsində Azərbaycan ekspertlərinin xarici təcrübə ilə tanış olmuşlar (birinci və ikinci komponent);
- Milli hesablar və Biznes Statistikası üçün İstehsalçı Qiymət İndeksinə aid yeni hesabat forması hazırlanmışdır. Bunlar dördüncü rübdə yerinə yetiriləcək sorğu zamanı həyata keçiriləcək;
- Qısa müddətli statistik göstəricilərinin dərin təhlili göstərdi ki, göstəricilərin əksəriyyəti Azərbaycanda vardır və BD-dən olan iştirakçılar ÜD-lərin ekspertləri ilə birgə bu ilin sonunda yerinə yetirilməsi planlaşdırılan pilot sorğu üçün sorğu vərəqəsinin ilkin versiyasını hazırlamışlar;
- Milli Hesabların metodologiyasının ikiqat deflyasiyanın ehtiyaclarına müvafiq uyğunlaşdırılması üçün təklif hazırlanmışdır.

## Fəaliyyətlər rəqəmlərdə

| | |
|---|---|
| **Yerinə yetirilən missiya** | 11 |
| - **% cəmi** | 31.4% |
| **ÜD-dən cəlb olunan ekspert** | 21 |
| **BD-dən olan iştirakçılar** | 35 |
| **Müzakirə olunan mövzular** | |

## Komponentlər üzrə fəaliyyətlər

| | |
|---|---|
| **Birinci Komponent** | 3 |
| **İkinci Komponent** | 2 |
| **Üçüncü Komponent** | 5 |
| **Dördüncü Komponent** | 1 |

## Layihənin idarəetmə heyətində dəyişikliklər

Almaniyanın Federativ Statistika İdarəsi Destatisin tərkibində yeni vəzifəyə təyinatı ilə əlaqədar olaraq üzv dövlət tərəfindən layihənin rəhbəri cənab Bernd Störtzbach 2010-cu ilin iyun ayında öz vəzifəsindən istefa verməli oldu. Aİ Deleqasiyasının təsdiqindən sonra cənab Ringo Raupach vəzifəyə təyin edilmiş və hazırda tvinninq layihəsinin yeni ÜD layihə rəhbəridir.

Eyni zamanda cənab Leonhard Fix Destatisin tərkibində layihə meneceri öhdəliklərini üzərinə götürmüşdür.

## Cənab Ringo Raupach, ÜD Layihə rəhbəri



*Siyasi elmlər və beynəlxalq əlaqələr üzrə mütəxəssis Cənab Ringo Raupach 2004-cu ildən etibarən DESTATIS ilə işləyir. O Aİ-yə üzvlük, qonşu və inkişaf etməkdə olan ölkələr ilə bağlı müxtəlif əməkdaşlıq layihələrinə cavabdeh olmuşdur. Hazırda o Destatisin tərkibində “Digər ölkələr ilə əməkdaşlıq” sektorunun icraçı rəhbəridir və Federal Statistika İdarəsi və Xorvatiya, Latviya, FYROM, Namibiya, Tacikistan və Türkiyə kimi ölkələrin MSİ ilə texniki əməkdaşlıq çərçivəsində fəaliyyət və proqramların təşkili və yerinə yetirilməsinə cavabdehdir. Onun müxtəlif tvinninq layihələri və digər texniki əməkdaşlıq layihələrində layihə rəhbəri/layihə meneceri kimi təcrübəsi vardır və bu müddət ərzində beynəlxalq və milli büdcədən maliyyələşdirilən texniki layihələr/proqramaların planlaşdırılması, idarə olunması, monitorinqi və qiymətləndirilməsinə dair biliklər əldə etmişdir.*

*Qısa dövr ərzində cənab Raupach Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə artıq üç dəfə səfər etmiş və tvinninq layihəsində müəyyən edilmiş məqsədləri yerinə yetirmək üçün layihədə başlamış olduğu uğurlu işi davam etdirmək niyyətindədir. Cənab Ringo Raupach ÜD layihə rəhbəri kimi öhdəliklərini 3 iyun 2010-cu il tarixindən başlayaraq yerinə yetirir və 23 iyun 2010-cu il tarixində keçirilən ikinci İdarəetmə Komitəsinə rəhbərlik etmişdir. Daha öncə tvinninq layihələrində işləməsi səbəbindən ÜD layihə rəhbərində edən dəyişiklik layihənin yerinə yetirilməsində heç bir mənfi təsir göstərməmişdir.*

## Cənab Leonhard Fix, Layihə meneceri



*Cənab Fiks 1990-cı ildə Destatisə qoşulmuşdur. PHARE proqram meneceri işlədiyi dövrdə cənab Fiks demək olar ki, Aİ üzv dövlətlərinin hamısı ilə əlaqələr qurmuşdur. O, Xorvatiya və Latviya kimi ölkələr ilə tvinninq layihələrinin idarə olunmasında geniş təcrübə qazanmışdır. O həmçinin Slovakiya Respublikasının Statistika İdarəsi ilə tvinninq layihəsində ÜD layihə rəhbəri olmuşdur.*

## Növbəti fəaliyyətlər

*Layihənin üçüncü rübündə beş fəaliyyət planlaşdırılıb razılaşdırılmışdır: iki təlim səfəri və üç qısa müddətli ekspert missiyası.*

| Fəaliyyət | Ay |
|---|---|
| Çexiya Respublikasına Təlim Səfəri, Milli Hesablar | iyul, 2010 |
| ÜDM-nın rüblük hesablamaları və onun komponentləri | avqust, 2010 |
| Müşahidə olunmayan iqtisadiyyat – qeyri-qanuni və gizlədilən fəaliyyətlər | iyun, 2010 |
| Çexiya Respublikasına Təlim Səfəri, biznes registrinin yenilənməsi üçün inzibati məlumat mənbələrinin istifadəsi. | iyun, 2010 |
| Milli hesablarda ikiqat deflyasiya üçün qiymət indekslərinin istifadəsi və təkmilləşdirilməsi | Avqustun sonu-sentyabrın əvvəli 2010 |

## Daxili monitorinq

Daxili qiymətləndirmə və fəaliyyətlərin yerinə yetirilməsinin monitorinqi hazırlanmışdır. Bu BD-dən olan iştirakçılar tərəfindən hər missiyadan sonra (üçüncü missiyadan başlayaraq) və dördüncü missiyadan başlayaraq ÜD-dən olan ekspertlər tərəfindən doldurulan qiymətləndirmə formasına əsaslanır (Azərbaycan və ingilis dillərində).

Formalar anonim şəkildə doldurulur.

Qiymətləndirmə cədvəllərinin nəticələri təhlil edilib emal olunmuşdur. Missiyaların qiymətləndirilmə sorğusu layihənin idarəetmə heyəti üçün maraqlı nəticələr təqdim etmiş və layihənin davam etdiyi dövr ərzində onun icrasının monitorinqi üçün istifadə ediləcəkdir.

## Bakıda Statistika İdarələrinin rəhbərlərinin üç tərəfli görüşü

Aprel ayının sonunda Almaniyadan Destatis, Bolqarıstandan MSİ və Azərbaycan Respublikasının DSK-nin rəhbərlərinin üç tərəfli görüşü baş tutmuşdur. Bu üç təşkilat tvinninq layihəsində əməkdaş olduqlarından görüş bilavasitə tvinninq layihəsinə aid idi. Görüş zamanı Destatis və Azərbaycan Respublikasının DSK arasında Anlaşma Memorandumu imzalanmışdır. Bolqarıstan MSİ ilə artıq mövcud olan memorandum əsasında 2010-2012-ci illər üçün Fəaliyyət Planı imzalanmışdır. DSK Və MSİ arasında olan birgə fəaliyyət planında yerinə yetirilən əməkdaşlıq tədbirləri tvinninq layihəsinə təsir etməyən mövzu sahələrinə aiddir. Bu əsasən sosial statistika, turizm, regional məlumatlın paylaşdırılması və s. sahədə məlumat və bilik mübadiləsini təmin edəcək. ÜD Layihə rəhbəri və RTM üç rəhbər nümayəndəni rəsmi formada bir yerə toplamaq məqsədi ilə tvinninq layihəsi haqqında təqdimat keçirmişdir.




**Statistika İdarələrinin rəhbərləri, 26.04.2010**
Soldan sağa: **xanım Mariana Kotseva (Bulqarıstan), cənab Arif Vəliev (Azərbaycan), cənab Roderich Egeler (Almaniya)**

## Zarafat

*Bizdə hətta çay da mövzuya uyğundur!*




*Rəsmiyyə Əliyevanın sayəsində*

## Əlaqəli şəxslər

| Layihə qrupu | | Komponent rəhbərləri | |
|---|---|---|---|
| **Adı** | **Vəzifəsi** | **Adı** | **Vəzifəsi** |
| Alxan Mansurov | Azərbaycan tərəfindən layihə rəhbəri | Nuru Süleymanov<br>nuru@azstat.org | Birinci - **Milli hesablar** və ikinci - **Müşahidə olunmayan iqtisadiyyat** komponentlərin rəhbəri |
| Ringo Raupach | Almaniya ÜD Layihə rəhbəri<br>ringo.raupach@destatis.de<br>Tel: +49 611758932 | Yusif Yusifov, yusify@azstat.org<br>Faiq Hacıyev, faigh@azstat.org<br>Elçin Hacı, elchinh@azstat.org | Üçüncü komponentin rəhbəri<br>**Biznes Statistikası** |
| Leonhard Fix | Almaniya Layihə meneceri<br>leonhard.fix@destatis.de<br>Tel: +49 611758936 | Natella Quliyeva<br>natella@azstat.org | Dördüncü komponentin rəhbəri<br>**İstehsalçıların qiymət indeksi** |
| Elka Atanasova | II dərəcəli ÜD layihə rəhbəri, Bolqarıstan<br>EAtanasova@NSI.bg<br>Tel: +35929857775 | | |
| Sergey Tsvetarsky | Rezident Tvinninq Müşaviri (RTM)<br>tsvetarsky@azstat.org<br>Tel: +99412 5105274 | | |
| Rahib Qojayev | Tərcüməçi<br>gojayev@azstat.org<br>Tel: +99412 5105274 | | |
| Fərhad Əliyev | RTM-nin Azərbaycanda tərəfdaşı<br>farhada@azstat.org<br>tel: +99412 4394762 | | |